


# Yeni dünya düzəni: strateji baxış bucağı və diplomatik uğur

*Aprelin 9-da ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" adlı beynəlxalq forum çağdaş geosiyasi dinamikanın müzakirə olunduğu, beynəlxalq əməkdaşlıq imkanlarının dəyərləndirildiyi və xüsusilə də Azərbaycanın yeni dünya düzənində mövqeyinin təhlil edildiyi əhəmiyyətli platforma kimi tarixə düşdü. Forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkənin xarici siyasət prioritetləri, həm də regional sabitlik və sülh perspektivləri ilə bağlı mesajlar verdi. Ermənistanla münasibətlərin normallaşdırılması kontekstində diqqətəlayiq tezislər səsləndirən ölkə başçısı vurğuladı ki, sülh sazişi imzalamaqla hər şey bitmir, əksinə, yeni mərhələyə start verilir.*

Münasibətlərin tam normallaşması zaman, davamlı səylər və qarşılıqlı siyasi iradə tələb edən prosesdir. Etimadın qurulması üçün təkcə diplomatik sənədlər deyil, həm də texniki əməkdaşlıq və sosial inteqrasiya alətləri mühüm rol oynayacaq. Prezidentin Gürcüstan vasitəçiliyi ilə gündəmə gələn təşəbbüslərə Azərbaycanın müsbət reaksiya verdiyini bildirməsi Bakının postmünaqişə dövründə region ölkələrinin vasitəçilik səylərinə açıq olduğunu göstərir. Həmçinin etimadın artırılması üçün jurnalist və ziyalıların mübadiləsi, ətraf mühitə dair texniki sessiyaların təşkili kimi kiçik, lakin simvolik addımlar tərəflər arasında gərginliyi azaltmaq baxımından mühüm rol oynaya bilər.

Forumda Prezident İlham Əliyevin vurğuladığı digər mühüm tezis ondan ibarət idi ki, ətraf mühit, su resursları, iqlim dəyişmələri, regional infrastruktur layihələri həm Azərbaycan, həm də Ermənistan üçün ümumi problem məsələləridir. Bu sahələrdə əməkdaşlığın təşviqi praktiki fayda verməklə yanaşı, həm də qarşılıqlı etimadın və dialoqun inkişafına kömək edəcək. Yəni sülh təkcə siyasi sazişlə deyil, həm də praktik əməkdaşlıqla qurulur. Ermənistan tərəfindən Araz çayının çirkləndirilməsi və Kür çayı ilə bağlı ekoloji narahatlıqlar diqqətə çatdırıldı. Bu bəyanat bir daha göstərdi ki, transsərhəd ekoloji problemlər regional sabitlik və insan təhlükəsizliyi ilə birbaşa əlaqəlidir. Bu baxımdan transsərhəd su resurslarının birgə idarə edilməsi və monitorinqi tərəflər arasında əməkdaşlıq üçün texniki, siyasi və diplomatik zəmin yarada bilər.

**(davamı 8-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Son illər dəyişən güc balansı və regional dinamika dövlətlər arasında münasibətlərin forma və məzmununa birbaşa təsir göstərir. Bu reallıq fonunda Azərbaycan-ABŞ münasibətləri də mühüm transformasiya mərhələsindən keçir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan və ABŞ arasında münasibətlər Bayden-Blinken administrasiyası dövründə tarazlığını itirərək dərin diplomatik böhrana sürüklənib, münasibətlərin korlanmasının məsuliyyəti Vaşinqtonun birtərəfli və qərəzli siyasətinin nəticəsi idi. ABŞ-ın dövlət katibi Antoni Blinkenin rəhbərlik etdiyi Dövlət Departamenti postmünaqişə dövründə Azərbaycanın suveren hüquqlarını və regional təhlükəsizlik prioritetlərini nəzərə almadan Ermənistanın mövqeyini açıq şəkildə dəstəkləyən addımlar atıb. Bu isə təbii olaraq, Bakıda narahatlıq və narazılıq yaradıb. Məsələnin daha dərin təhlili göstərir ki, Bayden administrasiyası Cənubi Qafqazda balanslı siyasət yerinə Ermənistana aid strateji xətt yürüdüb. Ermənistanla hərbi və siyasi əməkdaşlığın intensivləşdirilməsi, Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan bəyanatlara və diplomatik təzyiqlərə göz yumulması, beynəlxalq platformalarda aparılan kampaniyalar bu siyasətin əsas göstəriciləridir.

Bu siyasətin tərkib hissəsi olaraq ABŞ-a bağlı müxtəlif media orqanlarında və QHT platformalarında da Azərbaycan əleyhinə planlı və ardıcıl qarayaxma kampaniyaları həyata keçirilib. Bu kampaniyalarda da hüquq pozuntuları, insan haqları və demokratik institutlar adı altında siyasi motivli ittihamlar irəli sürülüb. Məsələnin daha da narahatedici tərəfi isə odur ki, ABŞ administrasiyası bu kampaniyalarda dolayısı ilə iştirak edib. Bütün bunların fonunda Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi ilə münasibətlərin yeni müstəviyə keçəcəyinə ümid bəslənir. Trampın ilk prezidentliyi dövründə Azərbaycan-ABŞ münasibətləri stabillik və əməkdaşlıq üzərində qurulmuşdu. Həmin dövrdə heç bir ciddi gərginlik yaşanmadı, enerji təhlükəsizliyi, terrorizmə qarşı mübarizə, iqtisadi və regional sabitlik məsələlərində ortaq maraqlar əsasında əməkdaşlıq edirdilər. Azərbaycan ümid edir ki, ABŞ-ın yeni rəhbərliyi Cənubi Qafqazda balanslı və obyektiv siyasət yürüdəcək, regional sabitliyə və sülh təşəbbüslərinə dəstək verəcək.

# Yeni dünya düzəni: strateji baxış bucağı və diplomatik uğur







Dünya düzəninin yenidən formalaşdığı bir dövrdə qlobal güc balansında baş verən gərginliklər təkcə münaqişə bölgələrini deyil, beynəlxalq münasibətlərin mahiyyətini də dəyişdirir. Rusiya-Ukrayna müharibəsi XXI əsrin ən mürəkkəb və proqnozlaşdırılması çətin olan qarşıdurmalardan biri kimi siyasi gündəmin mərkəzində dayanır. Bu kontekstdə Azərbaycan Prezidentinin Rusiya-Ukrayna müharibəsi ilə bağlı açıqlamaları regional güc kimi ölkəmizin strateji baxış bucağını və diplomatik fəlsəfəsini ortaya qoyur. Prezident İlham Əliyev beynəlxalq forumda çıxışı zamanı açıq şəkildə qeyd edib ki, Rusiya ilə Ukrayna arasında yaxın perspektivdə sülhün mümkünlüyü ehtimalı olduqca azdır. Bunun əsas səbəbi isə ərazi məsələsində tərəflərin kompromisə gəlmək iqtidarında olmamalarıdır. Azərbaycan bu müharibədə tərəfsiz qalsa da, Ukraynanın ərazi bütövlüyü və suverenliyini prinsipial şəkildə dəstəklədiyini dəfələrlə bəyan edib. Bu, Azərbaycanın beynəlxalq hüququ əsas götürən mövqeyinin və regiondakı sabitliyə yönəlik balanslı diplomatiyasının göstəricisidir. Qeyd edək ki, Rusiya işğal etdiyi torpaqları artıq faktiki olaraq öz ərazisinə inteqrasiya etməyə çalışır, konstitusiya dəyişikliyi və "referendumlar" vasitəsilə bu bölgələrin statusunu legitimləşdirməyə cəhd göstərir. Kreml açıq şəkildə bu torpaqlardan imtina etməyəcəyini bəyan edir və beynəlxalq ictimaiyyətin bu reallığı qəbul etməsini gözləyir. Ukrayna rəhbərliyi dəfələrlə vurğulayıb ki, heç bir halda ərazi güzəştinə gedilməyəcək, çünki bu, milli kimlik və tarix məsələsidir. Beləliklə, tərəflərin bu "qırmızı xətləri" sülh danışıqlarının real imkanlarını iflic vəziyyətinə salır. Prezident İlham Əliyevin yanaşmasına görə, atəşkəs əldə olunsa belə, bu, müvəqqəti mərhələ ola bilər. Əgər ərazi məsələsində konsensus əldə olunmazsa, müharibə latent formada davam edə bilər, çünki bu cür dərin geosiyasi qarşıdurmalar ancaq bir tərəfin üstünlüyü və ya məcburi siyasi kompromis nəticəsində sonlanır. Yeri gəlmişkən, Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü dəstəkləməsi həm də öz tarixi və geosiyasi təcrübəsinə əsaslanan prinsipial mövqedir.

Müasir beynəlxalq münasibətlər sistemində qarşılıqlı hörmət və bərabər hüquq prinsipləri üzərində qurulmalı olan əməkdaşlıq təəssüf ki, bəzən siyasi qərəz və ikili standartlarla əvəzlənir. Bu reallıq xüsusilə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası (AŞPA) arasında son illərdə baş verən gərginliklərdə özünü göstərir. Prezident İlham Əliyevin beynəlxalq forumda verdiyi bəyanatlar Azərbaycanın Avropa institutları ilə münasibətlərə yenidən baxdığını və bu qərarın arxasında duran əsas səbəbləri aydın şəkildə ortaya qoyur. Prezident İlham Əliyev bildirib ki, Avropa Şurası çərçivəsində Azərbaycana qarşı ayrı-seçkilik və qərəzli münasibət müşahidə olunub. Ən kritik məqam isə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməsindən dərhal sonra AŞPA-da ölkəmizin nümayəndə heyətinin mandatının tanınmaması və səsvermə hüququndan məhrum edilməsidir. Bu, Azərbaycanın beynəlxalq arenadakı legitimliyinə yönəlmiş siyasi təzyiq forması kimi qiymətləndirilir. Əslində, AŞPA-nın davranışlarında sistemli şəkildə müşahidə olunan selektiv yanaşma ikili standartlar və postkolonial Avropa siyasətinin təzahürüdür. Azərbaycan bu şəraitdə təşkilatla münasibətləri davam etdirməyin məqsədəuyğun olmadığını hesab edərək fəaliyyətini dayandırıb, Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) qərarlarını da artıq hüquqi baxımdan tanımadığını bəyan edib. Bunun səbəbi də AŞPA-da olduğu kimi, ölkəmizin məhkəmənin formalaşmasında iştirak imkanından məhrum edilməsidir. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan həmin hakimlərin seçilməsində iştirak etməyibsə, bu qərarların ölkə üçün hüquqi qüvvəsi ola bilməz.

Prezident İlham Əliyev Gürcüstan hökumətinin də Avropa Şurasında təmsilçiliyi dayandırmaq qərarına tam dəstək verdiyini bildirib. Bu, Qafqazın iki əsas dövlətinin Avropa institutlarına qarşı ortaq etiraz formalaşdırması baxımından diqqətçəkici haldır. Ölkə başçısının "Avropa Şurası üzərində oturduğu budağı kəsdi" ifadəsi təşkilatın Cənubi Qafqazla əməkdaşlıq perspektivlərini bilərəkdən məhdudlaşdırmasına və bu regionda geosiyasi nüfuzunu itirməsinə açıq işarədir. Beləliklə, Azərbaycan Avropa institutlarının postimperialist, paternalist yanaşmasına qarşı suveren iradəni əsas götürən mövqe sergiləyir. Avropa Şurası və AŞPA üçün bu münasibətlərin pozulması təkcə Azərbaycanla bağlı məsələ deyil. Bu, soyuq müharibə dövründə formalaşan beynəlxalq institutların funksional legitimliyi və təsir gücünün zəifləməsinin daha bir nümunəsidir. Əgər bir təşkilat tərəfdaş ölkələrin suveren qərarlarını və daxili reallıqlarını nəzərə almadan birtərəfli, siyasi motivli qərarlar verirsə, həmin qurumun təsir dairəsi getdikcə daralacaq. Azərbaycanın belə vəziyyətdə irəli sürdüyü "bizim üçün həyat davam edir" arqumenti beynəlxalq münasibətlərdə yeni dövrün - çoxtərəfli, qeyri-Avrosentrik diplomatiyanın göstəricisidir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 16 aprel(№74).- S.1;8.